

Oqtay Abbas,
ADU-nun dosenti, yazıçı-şair

# MÜQƏDDƏS YOLUN YOLÇUSU

## VƏ YA APREL DÖYÜŞLƏRİNİN TANKÇISI

### *Geriyə baxmağın vacibliyi*

**Heç nə qəfildən baş verməmişdi. Duya bilməyəcəyimiz, bəzənsə duymaq istəmədiyimiz hadisələr baş verirdi. "Qardaş xalqlar mühitində" yaşamış ailələrdən biri digər belə ailələrdən birinə xəyanət etmişdi. Keçmiş zamanda oldu. Amma indi də davam edir bu xəyanət. Özü də daha ciddi, daha hiyləgərcəsinə. Təəccüb edənlər çox idi. Amma yaddaşları möhkəmlər yaşlılardan eşitdiklərinə istnad edib, təəssüflə çiyinlərini çəkirdilər. Bu ani "bədən hərəkəti" başqa mətləblərdən soraq verirdi.**

Zaman-zaman törədilən "qonşu" qırğınlarının çox keçməmiş unudulmasına bir işarə idi həmin hərəkət. Azərbaycan Xalq Cümhuriyyətindən əmanət edilmiş 114 min kvadratkilometr torpağın 86 min kvadratklometrə enməsinin acısını ifadə edirdi o baxışlar. Və indi də dava torpaq davası idi. Başqa cür ifadə edib əsaslandırmağa çalışırdılar. Güya, Azərbaycandakı ermənilər digər millətlərdən pis yaşayırlarmış bu torpaqda. Amma hamımız, Allah və bir də statistika şahiddir ki, bizim torpaqlarda ermənilərin sosial şəraiti heç vaxt azəbaycanlıların şəraitindən pis olmayıb, əksinə, yaxşı olub. Nə qədər utanc gətirici olsa da, etiraf edək ki, Bakıya üz tutan, evləri olmayan azərbaycanlı tələbələr çox vaxt ermənilərin mənzillərində kirayədə qalırdılar. Bu evlər şəhərin mərkəzində, özü də gen-bol olduğundan ermənilər onları asanlıqla kirayə verə bilirdilər. Bu da bir əlavə gəlir mənbəyi idi. Azərbaycanlılar tarixi bir sadəlövhlüklə olanlara göz yumur, "gözucu" da olsa, bir qısqanclıq göstərmirdilər.

### *Amma indi*

Gözlərdəki nigarançılıq təkcə böyükləri narahat etmirdi. Ağılları kəsəndən bu söhbətlər içərisində böyüyən uşaqlara, yeniyetmələrə, gənclərə də təsirini göstərirdi xəyanət. Amma nə olsun? Sən saydığını say... "Münaqişə" kimi sadəlövh ad verilmiş faciələrə aparan bu yol getdikcə genəlir, daha uzaqlara uzanır, doğma dorpaqlarımız işğal altına düşür, elə-obaya qayıdan şəhidlərin sayı artırdı. Lakin bu heç də o demək deyildi ki, hər şey düşmənə asanlıqla başa gəlir, müqavimətlə rastlaşmırlar. Qətiyyən belə deyil.

**İlk dövrlərdə yaranan könüllülər təpədən dırnağa silahlanmış düşmənlə adi ov silahları ilə amansız şəkildə vuruşur, hər qarış torpaq şəhid qanı ilə suvarılırdı. Amma nə etmək olar? Yüz illər ərzində məkrli məqsədlərini həyata keçirmək üçün hər cür hiylədən istifadə edən, müasir silahlarla silahlanmış düşməndi düşmən. Üstəgəl, axı bu qüvvələri qızışdıran, yeri gələndə hər cür kömək göstrən güclər də vardı. Nə isə, hadisələr hələ yol gəlirdi.**

### *Qaçış*

Bəlkə də "qaçış" sözü indi yazıb sizə çatdırmaq istədiklərimi tam ifadə etmir. Hər halda, baş verdiyi dövrlərdə bunu "qaçış" adlandırırdılar.

Mehdi onda balaca idi. Şabran rayonundakı Ağbaş kənd orta məktəbində təhsil alırdı. Müəllimlərin az qala hər dərsdə haqqında danışdıqları, düşmən hiyləsi ilə əldən getmiş torpaqlardan söhbət açmaları şagirdlərin qəlbində Vətən sevgisi ilə yanaşı, onun əbədi tərkib hissəsi olan Qarabağa da məhəbbəti artırırdı. İş o yerə gəlib çatmışdı ki, o vaxtlar yeddinci sinifdə oxuyurdular, sinif yoldaşları gizlicə sözləşib, yola düşmüşdülər Qarabağa.

Hələ yeniyetməydilər. Həyatın sərt üzünü görməmişdilər. Müharibə haqqında təsəvvürləri yox idi. Amma Vətənin darda olduğunu, torpaqlarımızın işğalı ilə bağlı məkrli niyyətlərin həyata keçirildiyini yaxşı bilirdilər. Bunu onlar müəllimləri Səfər Əzimov, Feyaz Rəşidov, Gövhər Rəşidova, Şərbətalı Mahmudov, İnqilab Hüseyinovdan öyrənmişdilər. Bəlkə də elə bu söhbətərin təsirindən qərara gəlmişdilər ki, mütləq müharibədə iştirak etsinlər, şəhidlərin qisasını alsınlar. Şəhidlərin sayı da artmaqda davam edirdi: Ağbaşa şəhid cənazələrində gələn igidlər onların gözləri qarşısında dəfn olunur, məzarları ziyarəgaha çevrilirdi. Odur ki, günlərin birində yığışıb, heç vaxt olmadıqlarından yaxşı tanmadıqları, barəsində kitablardan oxuduqları Qarabağa yola düşdülər. Yaxşı ki məktəbdə bundan tez xəbər tutdular. Sinifdəki oğlanların heç birinin dərsdə iştirak etməməsi şübhələndirdi müəllimləri. Əvvəlcə qızlardan soruşdular. Qızlar heç nədən xəbərləri olmadıqlarını desələr də, nəhayət, sirrin üstü açıldı. Amma qızların bu sirdən necə xəbər tutduğunu heç kəs bilmədi. Çünki oğlanlar qərarlarını çox ciddi şəkildə gizli saxlamağa çalışırdılar. Yol pulunu da valideynlərdən istəməmişdilər ki, məsələni başa düşərlər. Sadəcə, məktəbin bufetindən yemək, su almaq üçün valideynlərinin onlara verdikləri pulları xərcləməyib, bu məqsədlə yığmışdılar. Hər halda, qızlar hansı yollasa oğlanların niyyətindən xəbər tutmuşdular. Qızlardan nə gizlətmək olur ki?

**Xəbər tutan kimi axtarışa başlamışdılar. Müəllimlər daxili bir qürur hissi keçirir, amma həm də ehtiyat edirdilər: Uşaqların özbaşına hərəkətləri, getmək istədikləri yerləri tanımamaları, ciblərində pulun olmaması və ya az olması narahat edirdi onları. Yolda başlarına bir iş gələ bilər deyə həyəcan keçirirdilər. Yaxşı ki uzağa gedə bilməmişdilər. Onları Siyəzəndə "iş başında", avtobusa minərkən "yaxalamışdılar." Sonrası necə olacaqdı, Allah bilir. Hələlikdə qaytarıb gətirmişdilər Ağbaşa, oradan da birbaşa məktəbə. Müəllimlər bir müddət nə edəcəklərini bilmədilər. Axı, əslində elə müəllimlərin əkdiyi toxum idi göyərən. Qərara gəldilər ki, ordumuz haqqında, hərbçi həyatı barədə daha çox məlumat versinlər. Əsgərliyə hazır olmağın əhəmiyyətindən danışsınlar. Nəhayət, deyəsən, şagirdləri inandıra bilmişdilər. Amma artıq ürəklərə səpilmiş toxum cücərməyə başlamışdı.**



**Ürəyində bu toxumların cücərtiləri-ni möhkəm qoruyanlardan biri də Mehdi idi.**

### *Mehdi Pircan oğlu Pircanov*

Mehdi Ağbaş kəndində doğulub. Amma uşaqlığını, təhsil illərində tətil günlərini Şabranın Çaraq kəndində babası Şahqubatın, əmisi Xancan kişinin, qardaşı Rövşənin yanında keçirib. Bu yerlər indi də ona doğmadər. Vaxt tapan kimi yolunu salır oralara. Deyir ki, Çaraqda olan hər bir anım mənə güc-qüvvət verir, buradakı gözəllik torpağn necə əziz olduğunu, onun hər qarışının qorunmasının vacibliyini yada salır.

Ağbaş kənd tam orta məktəbi Ağbaş kəndinin ilk şəhid övladı Pərviz Məmmədxan oğlu İdrisovun adını daşıyır. Məktəblilərin hamısı özünü ürəyində Pərvizə bənzədir, döyüşlərdə onun kimi cəsurluq göstərəcəklərini düşünürdü. Əslində şagirdlərdə bu əhvalın yaranmasında onların qürur yerinin- Pərvizin şəhidlik nümunəsinin rolu da az olmamışdı.

Beləcə, Mehdinin səbrsizliklə gözlədiyi gün gəlib çatdı. 2002-ci ilin oktyabrı idi. Mehdiyə həqiqi hərbi xidmətə çağırış vərəqi gəlmişdi. Qohum-qardaş onu yola salmağa yığışmışdılar. Hələ yaşları əsgərliyə çatmayan oğlanlar ona həsədlə baxırdılar. Anadan gec doğulduğu üçün özünü qınayanlar da vardı aralarında. Mehdinin əsgərlik həyatı belə başladı. Göytəpə Sərhəd Qoşunlarında xidmət etdi. Komandirləri qüsursuz xidmətinə görə onu həmişə nümunə göstərdilər.

Ədalətsiz müharibə isə gah aşkar, gah da gizli davam edirdi. Və birdəflik olaraq qərara gəldi ki, ömrünü hərbi xədmtə həsr edəcək.

Başqa cür necə ola bilərdi ki? Vətən torpağı yaralı, düşmənin iştahası sonsuz. İşğal olunmuş torpaqlarda heç vaxt olmamışdı. Amma qəribədir ki, bu torpaqlar gecələr yuxusuna girir, yuxusu ərşə çəkilirdi. Hər elə, hər obaya gələn şəhid xəbərləri onun boya başa çatdığı Ağbaşdakı evlərin qapılarını da döyürdü.

Bir gün qərarını evdə valideynlərinə - anası Nərgiz xanıma, indi haqq dünyasında olan atası Pircana çatdırdı. Hər ikisi razılığını bildirdi, xeyir-dua verdilər. Başqa cür necə ola bilərdi ki? Oğul Vətən üçün böyüyür. Vətənin dar günündə onun bu qərarına etiraz etmək ağlılarına belə gəlmədi:

**Vətən, başa çox iş gələr,**
**Tək sənin başın sağ olsun.**
**Biz ölməyə doğulmuşuq,**
**Torpağın, daşın sağ olsun.**

**(A.Sadiq)**

Sənədlərini Azərbaycan Silahlı qüvvələrinin Təlim-Tədris Mərkəzinə təqdim etdi. Qəbul üçün nəzərdə tutulmuş sınaqların hamısından uğurla çıxdı. Təhsil illərində məktəbin müdavimi kimi üzərinə düşən tapşırıqları layiqlə yerinə yetirdi. Komandirlərinin, müəllimlərinin rəğbətini qazandı. İntizamı, təşəbbüskarlığı, hərbin sirrlərini lazımınca öyrənməsi ilə diqqəti cəlb etdi, nümunə göstərildi. Təlim-Tədris Mərkəzində Mehdinin müəllimi olmuş polkovnik Firudin Quliyevin söylədiklərindən: Mehdini uşaqlıqdan tanıyıram. Gözlərimin qabağında böyüyüb. Hamı onu ağıllı, böyük-kiçik yeri bilən, ailəcanlı, dostcanlı bir gənc kimi tanıyıb həmişə. Bu xüsusiyyətləri təlim dövründə də özünü göstərdi. Təlim tapşırıqlarını layiqincə yerinə yetirirdi. Tankçı olmaq üçün vacib keyfiyyətlərə ürəklə yiyələndi. Özləri də oddan, alovdan keçmiş, indi isə bilik, bacarıqlarını səxavətlə gənclərə öyrədən müəllimlərinin hər bir tapşırığının yerinə yetirilməsinin zəruriliyini, gələcək döyüşlərdə əhəmiyyətini yaxşı dərk edir, yaxşı oxuyur, həm nəzəri, həm də praktik biliklrə səylə yiyələnirdi. Təhsil aldığı dövrdə Mehdidən kiminsə şikayət etdiyini, narazı qaldığını eşitmədim.

Bacarığını və istəyini nəzərə alaraq Mehdini Təlim-Tədris Mərkəzini başa vurandan sonra döyüş bölgələrindən birinin yaxınlığındakı hərbi hissəyə göndərdilər. Onun tankçı həyatı belə başladı.

### *Tankçı ömrü*

**Təlim-Tədris Mərkəzində təlimlər nə qədər döyüş şəraitinə yaxın bir vəziyyətdə keçirilisə də, hər halda, döyüş bölgəsi, düşmən səngərləri ilə üz-üzə olmaq tamam başqa şeydi. Düşmən səngərlərinin Azərbaycanın min illik torpaqlarında, kəndkəsəyində olması təkcə Mehdinin deyil, digər döyüşçülərin də gecəsini gündüzünə qatmışdı. Bu, sözlə ifadəsi mümkün olmayan bir hiss yaradırdı Mehdidə və onun döyüş yoldaşlarında.**

(ardı növbəti sayımızda)